# Dünənin, bugünün və sabahın partiyası




***Ulu öndər Heydər Əliyevin siyasi irsinin institusional təcəssümü sayılan Yeni Azərbaycan Partiyası 30 illik müstəqillik dövründə dövlətimizin əldə etdiyi mühüm nailiyyətlərin əsas ilhamverici qüvvəsi sayılır.***

Bu partiya ötən əsrin sonlarında ölkə həyatını bürümüş siyasi kataklizmlərin, ictimai inamsızlığın artdığı bir şəraitdə yaranmış və müdrik siyasətçi Heydər Əliyevin fədakar səyi sayəsində Azərbaycanın düşdüyü böhran vəziyyətindən uğurla çıxa bilməsində mühüm rol oynamışdır. Sonrakı illərdə də müstəqilliyin möhkəmləndirilməsi, ölkənin hərtərəfli inkişafı dahi şəxsiyyətin və onun rəhbərlik etdiyi iqtidar partiyasının xalq qarşısında böyük tarixi xidmətləri sayılır.

(ardı 5-ci səhifədə)



# Dünənin, bugünün və sabahın partiyası

*(əvvəli 1-ci səhifədə)*

Dövlətimiz 1991-ci ildə müstəqillik əldə etsə də, artıq onun itirilməsi təhlükəsi ilə üzləşmişdi. Ölkədə ciddi hakimiyyət böhranı yaşanır, anarxiya tüğyan edir, Bakı, az qala, vətəndaş müharibəsinə sürüklənirdi. Artıq Xocalı qətliamı törədilmiş, Şuşa, Laçın və digər ərazilərimiz işğal olunmuşdu. Xalqın üzləşdiyi faciələrin "qanadında" hakimiyyəti zəbt edən Xalq Cəbhəsi günbəgün nüfuzdan düşür, ölkənin idarəetməsində yaranan siyasi xaosu ard-arda atdığı yanlış addımlarla daha da dərinləşdirirdi.

Buna görə də 1992-ci ildə Azərbaycanın 91 nəfər tanınmış ziyalısı Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyevi hakimiyyət uğrunda açıq və fəal mübarizəyə səsləyən, onun hakimiyyətə qayıdışı zərurətini əsaslandıran müraciətə imza atdı. Qeyd olundu ki, xalq Azərbaycanı bu vəziyyətdən çıxara biləcək yeganə insana, hərtərəfli potensiallı və cəsarətli müdrik şəxsiyyətə sığınır. Müraciət cavabsız qalmadı və 550 nəfərdən ibarət təşəbbüs qrupu Naxçıvana gedərək orada partiyanın təsis konfransını keçirməyə nail oldu. Noyabrın 21-də Heydər Əliyevin sədrliyi ilə Azərbaycanın bütün regionlarından seçilmiş nümayəndələrin təmsil olunduğu konfrans keçirildi.

Həmin konfrans Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərar, partiyanın proqram və nizamnaməsini qəbul etdi. Konfransda Heydər Əliyev yekdilliklə partiyanın sədri seçildi. Habelə, partiyanın Siyasi Şurası, İdarə Heyəti və sədrin müavinləri seçildi. 1992-ci il dekabrın 18-də partiya Ədliyyə Nazirliyi tərəfindən rəsmi qeydiyyata alındı.

Beləliklə, müstəqil Azərbaycanın tarixində öz üzərinə böyük tarixi missiya götürən Yeni Azərbaycan Partiyası təşəkkül tapdı. Bu, əslində, tariximizin unudulmaz dönüş anı idi. Xilaskar partiyanın meydana gəlməsi 1988-ci ildən başlayaraq, ölkəmizdə cərəyan edən hadisələrin yekunu və mövcud olan ictimai-siyasi şəraitin məntiqi nəticəsi idi. Çox keçmədən böyük düha sahibinin atdığı cəsarətli addımlar ölkədə gedən dağıdıcı proseslərin qarşısının alınmasına vəsilə oldu.

Əvvəlcə müxalifət partiyası kimi təsis olunan, sıralarını Azərbaycanda hüquqi dövlət, sabit və sosialyönümlü iqtisadiyyat, vətəndaş cəmiyyəti qurmaq ideyalarını qəbul edən vətənsevərlərin hesabına genişləndirən YAP tədricən siyasi mübarizənin ön sırasına çıxdı. 1993-cü ilin yayında Azərbaycanda vətəndaş müharibəsi təhlükəsi artan dövrdə cəmiyyət birmənalı olaraq bütün ümidlərini Heydər Əliyevin dühası ilə bağladı. Xalqın tələbi ilə Naxçıvandan Bakıya gələn YAP sədri, Naxçıvan Ali Məclisinin rəhbəri qısa müddət ərzində vəziyyəti sabitləşdirdi və ölkəmizin inkişaf yoluna qədəm qoymasını təmin etdi.

O günlərin ictimai-siyasi mənzərəsini bir də xatırlayaq. İyunun 4-də Gəncədə Azərbaycan ordusunun keçmiş korpus komandiri Surət Hüseynovun başçılıq etdiyi hərbçilərlə hökumət qüvvələri arasında silahlı toqquşma baş vermiş, itaətsizlik göstərən 709 saylı hərbi hissənin tərksilah edilməsi ilə bağlı başlanan əməliyyat iflasa uğramış, hər iki tərəfdən 35 nəfər həlak olmuşdu. Gəncəyə göndərilmiş hökumət rəsmiləri S.Hüseynovun dəstəsi tərəfindən girov götürülmüşdü. İyunun 8-də Gəncə hadisələri səbəbindən ölkədə böhran yetərincə dərinləşdi. Surətin silahlıları qərb bölgəsində yerli hakimiyyət strukturlarını devirərək, Bakıya doğru hərəkət etməyə başladılar.

Bu zaman ciddi təlaş keçirən respublika rəhbərliyi vəziyyətdən yeganə çıxış yolunu ağsaqqal deputat Heydər Əliyevdən Bakıya gəlməsini və xalqı bu bəladan qurtarmasını xahiş etməkdə gördü. Prezident Əbülfəz Elçibəyin rəsmi dəvəti ilə Bakıya gələn Heydər Əliyev bütün risklərə baxmayaraq, cəsarətlə irəli durdu və bir qrup jurnalistlə Gəncəyə gedərək real vəziyyətlə yerində tanış olmaq qərarını verdi. Dünya şöhrətli siyasətçinin böyük cəsarət nümunəsi olan Gəncə səfəri tezliklə hər şeyi yoluna qoydu və ölkədə yaradılan daxili sabitliyin təməlinə çevrildi. Gəncəlilər hər yerdə xilaskarı gül-çiçəklə, xoş diləklə qarşılayırdılar. Əhali ulu öndərə sevgi və inamını hər vasitə ilə nümayiş etdirirdi.

Beləliklə, tarix yazan dahi şəxsiyyət – xalqının böyük oğlu Heydər Əliyev öz həyatını təhlükəyə ataraq, möhtəşəm qurtuluş missiyasını yerinə yetirdi. Gəncə səfərindən iki gün sonra – iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin Sədri vəzifəsinə seçildi. Tarixin sonrakı dönəmləri YAP-ın yaradılmasının və ulu öndərdən qayıdış tələbinin ən düzgün yol olduğunu göstərdi. Həmin ilin payızında ulu öndər Azərbaycan Prezidenti seçildi və ölkənin inkişaf konsepsiyasını ardıcıl surətdə həyata keçirdi.

Yeni yaranan nizami Azərbaycan Ordusunun uğurlu döyüş əməliyyatları keçirməsinin nəticəsi olaraq ermənilər Qarabağda atəşkəs barədə sazişi imzalamağa məcbur oldular. Bu isə ölkəmizdə iqtisadiyyatın dirçəldilməsinə, Silahlı Qüvvələri formalaşdırmağa imkan yaratdı. 1994-cü ildə ümummilli liderin uzaqgörən siyasəti sayəsində Bakıda "Əsrin müqaviləsi" imzalandı. Bu böyük iqtisadi uğur, eyni zamanda, Azərbaycanın dövlət müstəqilliyinin dönməz xarakter almasını təmin etdi. Növbəti ildə isə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edildi.

Yeni Azərbaycan Partiyasının namizədlərinin 1993, 1998, 2003, 2008, 2013 və 2018-ci illərdə baş tutan prezident seçkilərində qalib gəlməsi onun böyük uğurudur. İlk iki seçkidə Heydər Əliyev, sonrakı dörd seçkidə isə İlham Əliyev Azərbaycan Prezidenti seçildi. YAP 1995-ci ildə keçirilən parlament seçkilərində böyük üstünlüklə qalib gəlməklə Azərbaycanda vahid iqtidar partiyasına çevrildi. Milli Məclisə sonrakı beş seçkidə də bu partiya şəksiz üstünlüyünü göstərə bildi.

Möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrimizin müzəffər Ali Baş Komandanı İlham Əliyevin qazandığı möhtəşəm uğurlar onun YAP sədrliyi ilə paralel davam edir. 1999-cu ildə Yeni Azərbaycan Partiyasının sədr müavini, 2001-ci ildə isə YAP sədrinin birinci müavini vəzifəsinə irəli çəkilən İlham Əliyev 2005-ci il martın 26-da keçirilən YAP-ın üçüncü konqresində yekdilliklə partiyanın sədri seçilib və həmin gündən bu vəzifəni layiqincə şərəfləndirməkdədir. İlham Əliyevin uğurlu siyasəti sayəsində YAP-ın da cəmiyyət arasında nüfuzu xeyli yüksəlib. Onun sədrliyi dövründə partiya üzvlərinin sayı daha da artıb. Hazırda iqtidar partiyasının bir milyona qədər üzvü var. Bu ilin martında Yeni Azərbaycan Partiyasının VII qurultayında cənab İlham Əliyev yenidən YAP sədri seçilmişdir.

On səkkiz il öncə ulu öndərin tövsiyəsi ilə ölkə rəhbərliyinə gələn cənab İlham Əliyev dahi şəxsiyyətin siyasi məktəbinin ən layiqli davamçısı olduğunu sübut etmişdir. Azərbaycan ictimai-siyasi sabitliyi, mədəni-iqtisadi inkişafı ilə regionun lideri səviyyəsinə yüksəlmişdir. Qarabağda 30 illik erməni işğalına son qoyulmuş, möhtəşəm Zəfər tarixi yazılmışdır. Hazırda işğaldan azad olunmuş əzəli torpaqlarımızda genişmiqyaslı bərpa-quruculuq işləri görülür. Bu yaxınlarda dövlət başçımızın Türk Dünyasının Ali Ordeni ilə təltif edilməsi həm onun Vətən müharibəsində böyük Qələbə qazanaraq, ölkəmizin ərazi bütövlüyünü təmin etməsinə, həm də türk birliyi naminə göstərdiyi fədakar səylərinə verilən yüksək qiymətdir.

Cənab İlham Əliyevin şəxsi nümunəsini özləri üçün xalqa xidmət meyarı sayan Yeni Azərbaycan Partiyasının üzvləri onlara tapşırılan hər sahədə əsl vətənpərvərlik və layiqli idarəetmə əzmi nümayiş etdirməyə çalışırlar. Ulu öndər Heydər Əliyevin dünənin, bu günün və sabahın partiyası adlandırdığı bu aparıcı siyasi təşkilatda fəaliyyətlərini daha da gücləndirirlər. Bütün bu səylərin kökündə ulu öndərin bünövrəsini qoyduğu siyasətə sadiqlik, cəmiyyət həmrəyliyi və ali ideyalara bağlılıq dayanır.

Cəmiyyətin digər siyasi qüvvələri ilə əməkdaşlığa daim açıq olan YAP partiyalararası dialoqu da lazımınca dəyərləndirir. Təsadüfi deyil ki, ötən il sentyabrın 27-də Vətən müharibəsi başlananda, demək olar, bütün siyasi partiyalar ölkə rəhbərliyinə dayaq olublar. Ölkədə fəaliyyət göstərən 50 siyasi partiya Ermənistan silahlı qüvvələrinin hərbi təxribatına dair birgə bəyanat yayıb. Həmin bəyanatda ölkəmizin bütün vətəndaşlarını və dünya azərbaycanlılarını bir daha milli birliyə və vəhdətə səsləyən partiyalar hər kəsi Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasına töhfə verməyə, beynəlxalq ictimaiyyəti isə Azərbaycanın həm tarixi həqiqətlər, həm də beynəlxalq hüquqla dəstəklənən haqq mübarizəsinə biganə qalmamağa çağırıblar.

Müharibə dövründə siyasi mənsubiyyətindən asılı olmayaraq, xalqın bütün təbəqələrinin sıx birliyi nümayiş etdirilib. Yeni Azərbaycan Partiyasının bu ilin martında keçirilən VII qurultayında Azərbaycanda fəaliyyət göstərən 6 siyasi partiyanın təşəbbüsü ilə onların YAP-a qoşulması reallaşıb. Bu, sivil cəmiyyətlərdə müşahidə olunan bir prosesdir və YAP-ın nüfuzunun necə yüksək olduğunu göstərir.

YAP-ın beynəlxalq əlaqələri də həm başqa ölkələrin siyasi partiyaları ilə əməkdaşlığın, həm də beynəlxalq təşkilatlarda təmsilçiliyinin yüksək nümunəsidir. Bu əlaqələrdə dost və qardaş Türkiyənin, MDB üzvü olan ölkələrin, Avropa və Asiyanın bir sıra aparıcı siyasi partiyaları və qurumları ilə münasibətlər prioritet istiqamətlərdir. Yeni Azərbaycan Partiyası Türkiyə, Rusiya, Ukrayna, Gürcüstan, Qazaxıstan, Kanada, Hindistan, Çin, Cənubi Koreya, Pakistan, Tacikistan və digər ölkələrin əsas siyasi partiyaları ilə uzun müddətdən bəri sıx və qarşılıqlı münasibətlərə malikdir. Partiyalar arasında intensiv görüşlər keçirilir, fikir və təcrübə mübadiləsi aparılır.

Eyni zamanda, YAP nüfuzlu beynəlxalq qurumlarda təmsil olunmaqla Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində mühüm tribuna əldə edib. YAP Mərkəzçi Beynəlxalq Demokratlar Təşkilatı, Avropa Xalqları Partiyası ilə geniş əlaqələrə malikdir. Yeni Azərbaycan Partiyası həm də Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransı çərçivəsində səmərəli fəaliyyət göstərir.

Bütün bunlarla bərabər, YAP-ın təşəbbüsü və təşkilatçılığı ilə ölkəmizdə müxtəlif konfrans və forumların keçirilməsi, partiya nümayəndələrinin Avropada müxtəlif siyasi forumlarda uğurla təmsil olunmaları kimi faktlar da əhatəli əməkdaşlıq əlaqələrinə dəlalət edir.

Hazırda iqtidar partiyasının sədri, Prezident İlham Əliyevin yüksək vətənpərvərlik səyləri sayəsində Azərbaycan daha işıqlı sabahlara üz tutub. Ölkəmiz özünün sivil mühiti, ictimai-siyasi sabitliyi, mədəni-iqtisadi inkişafı ilə dünyanın söz sahibi olan dövlətləri sırasına qoşulub. Yeni Azərbaycan Partiyası isə regionun və dünyanın tanınmış, nüfuzlu siyasi partiyalarından biridir.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***